## Ərazi və əhali

Rayonunun ərazisi 1,18 min kvadrat kilometrə, əhalinin sıxlığı isə bir kvadrat kilometrə 93,0 nəfərə bərabərdir.

İlkin məlumata əsasən 2023-cü il oktyabr ayının 1-i vəziyyətinə rayonunun əhalisi 110289 nəfər olmuş və əhalinin 49,7 faizini kişilər, 50,3 faizini qadınlar təşkil edir.

Əhalinin 20,1 min nəfəri və ya 18,3 faizi şəhər yerlərində, 90,2 min nəfəri və ya 81,7 faizi isə kənd yaşayış məntəqələrində yaşayır.

Əhalinin 24,0 faizini 0-14 yaşda, 69,4 faizini 15-64 yaşda, 6,6 faizini isə 65 və yuxarı yaşda olanlar təşkil edir. 2019-cu ildə keçirilmiş əhalinin siyahıyaalınmasının nəticəsinə əsasən əhalinin 88,9 faizini azərbaycanlılar, 11,1 faizini isə digər millətlər təşkil edir.

2022-2023-cü illərin yanvar-sentyabr aylarında bəzi demoqrafik göstəricilər.

| Göstəricilər | Nəfər | | Əhalinin hər min nəfərinə | |
|---|---|---|---|---|
| | 2023-cü ilin yanvar-sentyabr aylarında (ilkin) | 2022-ci ilin yanvar-sentyabr aylarında | 2023-cü ilin yanvar-sentyabr aylarında (ilkin) | 2022-ci ilin yanvar-sentyabr aylarında |
| **Əhalinin sayı** | **110289** | **109429** | **x** | **x** |
| Ümumi artım | 580 | 775 | 7,0 | 9,5 |
| Təbii artım | 523 | 728 | 6,3 | 8,9 |
| Doğulanlar | 920 | 1143 | 11,1 | 14,0 |
| Ölənlər | 397 | 415 | 4,8 | 5,1 |
| o cümlədən :<br>1 yaşa qədər ölənlər | 5 | - | 5,4 | - |
| Miqrasiya saldosu | 57 | 47 | 0,7 | 0,6 |
| Nikahlar | 383 | 509 | 4,7 | 6,2 |
| Boşanmalar | 122 | 96 | 1,5 | 1,2 |

2023-cü ilin yanvar-sentyabr aylarında rayonda 920 nəfər körpə doğulmuş və 397 nəfər ölən qeydə alınmışdır. Vəfat edənlərin 5 nəfəri 1 yaşa qədər ölən uşaqlar olmuşdur.

2022-ci ilin yanvar-sentyabr ayları ilə müqayisədə əhalinin hər min nəfərinə doğulanların sayı 14,0-dən 11,1-ə qədər, ölənlərin sayı isə 5,1-dən 4,8-ə qədər azalmışdır.

2023-cü ilin yanvar-sentyabr aylarında rayonda 383 nikah və 122 boşanma qeydə alınmışdır ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə əhalinin hər min nəfərinə hesabı ilə nikahların sayı 6,2-dən 4,7-yə qədər azalmış, boşanmaların sayı isə 1,2-dən 1,5-ə qədər artmışdır.

## Makroiqtisadi göstəricilər

2023-cü ilin yanvar-sentyabr aylarında əvvəki ilin müvafiq dövrü ilə müqayisədə ümumi məhsul buraxılışının həcmi 25080,3 min manat və ya müqayisəli qiymətlərlə 2,5 faiz artaraq, 313611,9 min manat olmuşdur.

Ümumi məhsul buraxılışının həcmi müqayisəli qiymətlərlə tikinti sahəsi üzrə 98,2 faiz, informasiya və rabitə sahəsi üzrə 15,0 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsi üzrə 3,0 faiz, ticarət: nəqliyyat vasitələrininin təmiri sahəsi üzrə 1,0 faiz artmışdır. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsinin həcmi 26587,8 min manat və ya müqayisəli qiymətlərlə 1,0 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi isə 3140,0 min manat və ya müqayisəli qiymətlərlə 2,6 faiz artmışdır. 2023-cü ilin yanvar-avqust ayları ərzində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 549,6 manat olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 49,3 manat və ya 9,9 faiz çoxdur.

| | 2023-cü ilin yanvar-sentyabr aylarında faktiki qiymətlərlə (min manatla) | 2022-ci ilin yanvar-sentyabr aylarında faktiki qiymətlərlə (min manatla) | 2022-ci ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə, faizlə |
|---|---|---|---|
| **Rayon üzrə ümumi məhsul buraxılışının həcmi (ilkin məlumat)** | **313611,9** | **288531,6** | **102,5** |
| *o cümlədən:* *- Sənaye* | *43666,4* | *49467,2* | *97,1* |
| *- Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq* | *184186,8* | *164813,0* | *103,0* |
| *- Tikinti* | *5742,5* | *2897,3* | *198,2* |
| *- Nəqliyyat və anbar təsərrüfatı* | *2764,9* | *2699,6* | *96,8* |
| *- İnformasiya və rabitə* | *678,4* | *589,7* | *115,0* |
| *- Ticarət: nəqliyyat vasitələrinin təmiri* | *76572,9* | *68064,8* | *101,0* |
| Əsas kapitala yönəldilmiş investitsiya | 5905,6 | 3360,6 | 175,7 |
| Pərakəndə ticarət dövriyyəsi | 239290,2 | 212702,4 | 101,0 |
| Əhaliyə göstərilən ödənişli xidmətlər | 28255,0 | 25115,0 | 102,6 |
| Nəqliyyat sektorunda yük daşınması, fiziki şəxslər üzrə (min ton) | 374,0 | 340,0 | 110,0 |
| Nəqliyyat sektorunda sərnişin daşınması, fiziki şəxslər üzrə (min sərnişin) | 4792,0 | 3950,0 | 121,3 |
| Orta aylıq nominal əməkhaqqı (manat) 01.09.2023-cü il tarixinə | 549,6 | 500,3 | 109,9 |

## Kənd təsərrüfatı

Rayonunun iqtisadiyyatında kənd təsərrüfatı mühüm yer tutur. 2023-cü ilin 9-ayı ərzində istehsal edilmiş kənd təsərrüfatı məhsullarının ümumi dəyəri ilkin hesablamalara əsasən 184186,8 min manat təşkil etmişdir ki, bu da əvvəlki ilin eyni dövrünə nisbətən 19373,8 min manat və ya müqayisəli qiymətlərlə 3,0 faiz çoxdur. Istehsal olunmuş kənd təsərrüfat məhsullarının 120119,5 min manat və ya 65,2 faizi bitkiçilik məhsullarının, 64067,3 min manatı və ya 34,8 faizi heyvandarlıq məhsullarının payına düşür.

**Kənd təsərrüfatının sahələri üzrə məhsul buraxılışı, min manatla**

| Göstəricilərin adı | 2023-cü ilin yanvar-sentyabr qiymətlərlə, min manatla | 2022-ci ilin yanvar-sentyabr qiymətlərlə, min manatla | Fərq faktiki qiymətlərlə, min manatla +;- | 2022-ci ilə nisbətən fiziki həcm indeksi, faizlə |
|---|---|---|---|---|
| Kənd təsərrüfatı sahəsi üzrə | 184186,8 | 164813,0 | 19373,8 | 103,0 |
| o cümlədən:<br>*- bitkiçilik sahəsi üzrə* | *120119,5* | *107851,5* | *12268,0* | x |
| *- heyvandarlıq sahəsi üzrə* | *64067,3* | *56961,5* | *7105,8* | x |

**Bitkiçilik** 2023-ci ilin məhsulu üçün 53589,3 hektar sahədə payızlıq və yazlıq bitkilər əkilmişdir ki, bunun da 46636,2 hektarı və ya 87,0 faizi əhali və fərdi sahibkarlar üzrə 6953,1 hektar və ya 13,0 faizi kənd təsərrüfatı müəssisələrinin payına düşür.

Rayon üzrə ümumi əkin sahəsinin 19801,0 hektarında və ya 36,95 faizi payızlıq taxıl, 16586,0 hektar və ya 30,95 faiz yem bitkiləri, 12624,1 hektar və ya 23,56 faizi pambıq, 2463,5 hektar və ya 4,60 faiz bostan, 922,5 hektar və ya 1,72 faizi dən üçün qarğıdalı, 812,2 hektar və ya 1,51 faizi tərəvəz, 364,0 hektar və ya 0,68 faiz kartof, 9 hektar və ya 0,02 faizi lobya, 7 hektar və ya 0,01 faizi günəbaxan əkilmişdir. Sahələrdən məhsul yığımı davam etdirilir. 01 oktyabr 2023-cü il tarixə 19801,0 hektar sahədə taxıl məhsulu biçilmişdir, həmin sahədən 80909,6 ton məhsul toplanmışdır kı, bu da hər hektardan 40,9 sentner məhsul deməkdir.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisə etdikdə hər hektardan 0,2 sentner çox taxıl məhsul toplanmışdır. 894,0 hektar sahədən 5379,4 ton və ya hər hektardan 60,2 sentner dən üçün qarğıdalı, 9 hektar sahədən 77,5 ton və ya hər hektardan 86,1 sentner dənli paxlalılar (lobya) məhsulu, 7 hektar sahədən 39,6 ton və ya hər hektardan 56,6 sentner dən üçün günəbaxan, 364,0 hektar sahədən 7298,1 ton və ya hər hektardan 200,5 sentner kartof, 812,2 hektar sahədən 22767,2 ton və ya hər hektardan 280,3 sentner tərəvəz, 2463,5 hektar sahədən 85479,3 ton və ya hər hektardan 347,0 sentner bostan, 3071,6 hektar sahədən 6103,0 ton və ya 19,9 sentner meyvə və giləmeyvə, 16586,0 hektar sahədən 128200,5 ton və ya hər hektardan 77,3 sentner yonca və 1387,6 ton üzüm məhsulu toplanmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə hər hektardan 0,4 sentner dən üçün qarğıdalı, 0,2 sentner lobya, 0,6 sentner dən üçün günəbaxan, 0,3 sentner kartof, 0,1 sentner tərəvəz, 13,4 sentner bostan və 0,5 sentner yonca çox toplanmışdır.

Rayonda pambıq tədarükü davam edir. 01 oktyabr 2023-cü il tarixinə əkilmiş 12624,1 hektar sahədən 3152,4 ton xam pambıq tədarük edilmişdir ki, bu da respublika üzrə pambıq tədarükündə ən yaxşı göstəricidir. Sahələrdə kənd təsərrüfatı məhsullarının yığımı davam edir.

## Kənd təsərrüfatı bitkilərinin əkin sahəsi (bütün təsərrüfat kateqoriyaları üzrə), ha

| Bitkiçilik məhsullarının adı | 2023-cü il yanvar-sentyabr | 2022-ci il yanvar-sentyabr | 2022-ci ilin müvafiq dövrünə nisbətən fərqi +,- |
|---|---|---|---|
| **Dənlilər və dənli paxlalılar-cəmi** | **20732,5** | **18800,5** | **1932,0** |
| *o cümlədən:* | | | |
| *- buğda* | *14873,0* | *13091,0* | *1782,0* |
| *- arpa* | *4928,0* | *5460,5* | *-532,5* |
| *- dən üçün qarğıdalı* | *922,5* | *241,0* | *681,5* |
| *- lobya* | *9,0* | *8,0* | *1,0* |
| *- sair dənli bitkilər (vələmir)* | - | - | - |
| **Texniki bitkilər-cəmi** | ***12631,1*** | ***12576,0*** | ***55,1*** |
| *o cümlədən:* | | | |
| *- pambıq* | *12624,1* | *12570,0* | *54,1* |
| *- şəkər çuğunduru* | - | - | - |
| *- süpürgə* | - | - | - |
| *- dən üçün günəbaxan* | *7,0* | *6,0* | *1,0* |
| **Kartof** | **364,0** | **362,0** | **2,0** |
| **Tərəvəz** | **812,2** | **808,8** | **3,4** |
| **Bostan bitkiləri** | **2463,5** | **2445,5** | **18,0** |
| **Meyvə və giləmeyvə** | **3071,6** | **2856,9** | **214,7** |
| **Üzüm** | **-** | **-** | **-** |
| **Cəmi yem bitkiləri** | **16586,0** | **18642,7** | **-2056,7** |
| *o cümlədən:* | | | |
| *- yonca* | *16586,0* | *18576,7* | *-1990,7* |
| *- yem üçün qarğıdalı* | - | *66,0* | *-66,0* |

## Əsas bitkiçilik məhsullarının istehsalı (bütün təsərrüfat kateqoriyaları üzrə), ton

| Bitkiçilik məhsullarının adı | 2023-cü il yanvar-sentyabr | 2022-ci il yanvar-sentyabr | 2022-ci ilin müvafiq dövrünə nisbətən fərqi +,- |
|---|---|---|---|
| **Dənlilər və dənli paxlalılar-cəmi** | **86366,5** | **76996,2** | **9370,3** |
| *o cümlədən:* | | | |
| *- buğda* | *63062,3* | *55767,7* | *7294,6* |
| *- arpa* | *17847,3* | *19717,6* | *-1870,3* |
| *- dən üçün qarğıdalı* | *5379,4* | *1442,2* | *3937,2* |
| *- lobya* | *77,5* | *68,7* | *8,8* |
| *- sair dənli bitkilər (vələmir)* | - | - | - |
| **Texniki bitkilər-cəmi** | ***3192,0*** | ***3591,6*** | ***-399,6*** |
| *o cümlədən:* | | | |
| *- pambıq* | *3152,4* | *7417,5* | *-4265,1* |
| *- şəkər çuğunduru* | - | - | - |
| *- süpürgə* | - | - | - |
| *- dən üçün günəbaxan* | *39,6* | *33,6* | *6,0* |
| **Kartof** | **7298,1** | **7247,2** | **50,9** |
| **Tərəvəz** | **22767,2** | **22662,6** | **104,6** |
| **Bostan bitkiləri** | **85479,3** | **81584,1** | **3895,2** |
| **Meyvə və giləmeyvə** | **6103,0** | **6054,8** | **48,2** |
| **Üzüm** | **1387,6** | **1376,9** | **10,7** |
| **Cəmi yem bitkiləri** | **128200,5** | **142709,7** | **-14509,2** |
| *o cümlədən:* | | | |
| *- yonca* | *128200,5* | *142709,7* | *-14509,2* |
| *- yem üçün qarğıdalı* | - | - | - |

**Məhsuldarlıq (bütün təsərrüfat kateqoriyaları üzrə), sentner/ha**

| Bitkiçilik məhsullarının adı | 2023-cü il yanvar-sentyabr | 2022-ci il yanvar-sentyabr | 2022-ci ilin müvafiq dövrünə nisbətən fərqi +,- |
|---|---|---|---|
| **Dənlilər və dənli paxlalılar-cəmi** | **41,6** | **40,9** | **0,7** |
| *o cümlədən:*<br>*- buğda* | *42,4* | *42,6* | *-0,2* |
| *- arpa* | *36,2* | *36,1* | *0,1* |
| *- dən üçün qarğıdalı* | *60,2* | *59,8* | *0,4* |
| *- lobya* | *86,1* | *85,9* | *0,2* |
| *- sair dənli bitkilər (vələmir)* | - | - | - |
| **Texniki bitkilər-cəmi** | | | |
| *o cümlədən:*<br>*- pambıq* | *29,0* | *20,8* | *8,2* |
| *- şəkər çuğunduru* | - | - | - |
| *- süpürgə* | - | - | - |
| *- dən üçün günəbaxan* | *56,6* | *56,0* | *0,6* |
| **Kartof** | **200,5** | **200,2** | **0,3** |
| **Tərəvəz** | **280,3** | **280,2** | **0,1** |
| **Bostan bitkiləri** | **347,0** | **333,6** | **13,4** |
| **Meyvə və giləmeyvə** | **19,9** | **21,1** | **-1,2** |
| **Üzüm** | **-** | **-** | **-** |
| **Cəmi yem bitkiləri** | **77,3** | **76,8** | **0,5** |
| *o cümlədən:*<br>*- yonca* | *77,3* | *76,8* | *0,5* |
| *- yem üçün qarğıdalı* | - | - | - |

**Heyvandarlıq:** 2023-cü ilin 01 oktyabr vəziyyətinə bütün təsərrüfat kateqoriyaları üzrə iri buynuzlu mal-qaranın baş sayı 68141 baş, o cümlədən, inək və çamışların baş sayı 32607 baş, qoyun və keçilərin baş sayı 115855 baş olmuşdur. 2022-ci ilin müvafiq dövrünə nisbətən iri buynuzlu mal-qaranın baş sayı 189 baş, qoyun və keçilərin baş sayı isə 627 baş artmışdır.

İri buynuzlu mal qaranın tərkibində inək və çamışların sayı əvvəlki ilin müvafiq dövrünə nisbətən 99 baş artmışdır.

Heyvandarlıq sahəsində fəaliyyət göstərən kəndli fermer təsərrüfatları və dövlət kənd təsərrüfatı müəssisələri üzrə 2023-cü ilin 01 oktyabr vəziyyətinə iri buynuzlu mal-qaranın sayı 723 baş, o cümlədən, inək və çamışların sayı 343 baş, qoyun və keçilərin baş sayı isə 9308 baş olmuşdur. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə iri buynuzlu mal qaranın sayı 73 baş, o cümlədən,inək və camışların sayı 23 baş artmış, qoyun və keçilərin sayı isə 91 baş azalmışdır.

Heyvandarlıq sahəsində 24 kəndli fermer təsərrüfatı fəaliyyət göstərir ki, ondan 1-i dövlət müəssisəsidir.

| **Mal-qaranın sayı (bütün təsərrüfat kateqoriyaları üzrə), müqayisəli məlumat (baş)** | | | |
|---|---|---|---|
| Göstəricilər | 01.10.2023-cü il tarixinə | 01.10.2022-ci il tarixinə | 2022-ci ilin müvafiq dövrünə nisbətən fərqi +,- |
| İri buynuzlu mal-qara | 68141 | 67952 | +189 |
| *o cümlədən:*<br>*- inək və camış* | 32607 | 32508 | +99 |
| Qoyun və keçilər | 115855 | 115228 | +627 |




2023-cü ilin yanvar-sentyabr ayları ərzində ət istehsalı (diri çəkidə) 5936,1 ton, süd istehsalı 32392,2 ton, yumurta istehsalı 11231 min ədəd, yun istehsalı 231,6 ton, barama istehsalı 1,8 ton olmuşdur. Əvvəki ilin müvafiq dövrü ilə müqayisədə 4,8 ton ət, 5,8 ton süd, 102 min ədəd yumurta, 7,5 ton yun çox istehsal olunmuşdur. Barama istehsalı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,3 ton az olmuşdur.

| **Heyvandarlıq məhsullarının istehsalı, müqayisəli məlumat** | | | | | |
|---|---|---|---|---|---|
| Məhsulun adı | Ölçü vahidi | 2023-cü ilin yanvar-sentyabr aylarında | 2022-ci ilin yanvar-sentyabr aylarında | 2022-ci ilin müvafiq dövrünə nisbətən, | |
| | | | | +;- | faizlə |
| Ət (diri çəkidə) | ton | 5936,1 | 5931,3 | +4,8 | 100,08 |
| Süd | ton | 32392,2 | 32386,4 | +5,8 | 100,02 |
| Yumurta | min ədəd | 11231 | 11129 | +102 | 100,92 |
| Yun | ton | 231,6 | 224,1 | +7,5 | 103,35 |
| Barama | ton | 1,8 | 2,1 | -0,3 | 85,71 |

# Sənaye

2023-cü ilin yanvar-sentyabr ayları ərzində sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən faktiki qiymətlərlə 43666,4 min manatlıq və ya 2022-ci ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 2,9 faiz az sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. İstehsalın 92,79 faizi sənaye məhsulları, 7,21 faizi isə sənaye xarakterli xidmətlərdən ibarət olmuşdur.

İstehsal olunan sənaye məhsulu və xidmətlərin 92,79 faizi emal və mədənçıxarma sənayesi bölməsinin, 4,74 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsinin, 2,47 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsinin payına düşür. Ümumi istehsalda qeyri-dövlət sektoru 68,5 faiz, dövlət sektoru isə 31,5 faiz təşkil etmişdir.

01 oktyabr 2023-cü il tarixinə sənaye müəssisələrinin anbarlarında 30817,7 min manatlıq hazır məhsul qalığı olmuşdur.

Mal və xidmətlərin 35288,7 min manat və ya 80,8 faizi hüquqi şəxslər, 8377,7 min manat və ya 19,2 faizi isə fərdi sahibkarlar və ev təsərrüfatları tərəfindən istehsal olunmuşdur.

Sənaye istehsalçıları tərəfindən yanvar-sentyabr ayları ərzində 9799,2 ton pambıq mahlıcı, 12445,6 ton pambıq çiyidi, 434,1 ton pambıq lint-tiftiyi, 51,3 ton pambıq ulyuku, 706,9 ton biyan turşusu, 70,5 ton biyan kipi istehsal olunmuşdur.

2023-cü ilin yanvar-sentyabr ayları ərzində müəssisələr tərəfindən istehsal olunmuş məhsulların miqdarı və əvvəlki ilin müvafiq dövrü ilə müqayisəsi aşağıdakı cədvəldə göstərilmişdir.

**Sənaye müəssisələri tərəfindən natura formasında istehsal olunmuş məhsullar müqayisəli (tonla)**

| Məhsulun adı | 2023-cü ilin yanvar-sentyabr aylarında | 2022-ci ilin yanvar-sentyabr aylarında | 2022-ci ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| Pambıq mahlıcı | 9799,2 | 10295,0 | 95,2 |
| Pambıq çiyidi | 12445,6 | 12688,0 | 98,1 |
| Pambıq tiftiyi (linti) | 434,1 | 599,3 | 72,4 |
| Pambıq ulyuku | 51,3 | 57,4 | 89,4 |
| Biyan turşusu | 706,9 | 668,3 | 105,8 |
| Biyan kipi | 70,5 | 145,0 | 48,6 |

## Əsaslı tikinti

2023-cü ilin yanvar-sentyabr ayları ərzində tikinti təşkilatları və fərdi sahibkarlar tərəfindən 5742,5 min manat həcmində tikinti işləri yerinə yetirilmişdir. Görülmüş tikinti işlərinin 4161,8 min manatını və ya 72,5 faizini tikinti, yenidənqurma, genişləndirmə, texniki avadanlıqlar və cihazlarla yenidən təchiz edilməsi işləri, 451,8 min manatını və ya 7,9 faizini əsaslı təmir, 1128,9 min manatını və ya 19,6 faizini isə cari təmir işləri təşkil etmişdir.

Cari ilin 9 ayı ərzində istifadəyə verilmiş əsas fondların dəyəri 1475,7 min manat təşkil etmiş və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 24,9 faiz çox olmuşdur.

2023-cü ilin yanvar-sentyabr ayları ərzində bütün maliyyə mənbələri hesabına əsas kapitala yönəldilmiş investisiyanın həcmi 5905,6 min manat olaraq əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 75,7 faiz çox olmuşdur. İstifadə olunan investisiyanın 3871,6 min manatı və ya 65,6 faizi dövlət vəsaiti, 2034,0 min manatı və ya 34,4 faizi isə qeyri dövlət vəsaitləri hesabına olmuşdur.

Cari ilin yanvar-sentyabr ayları ərzində əhalinin şəxsi vəsaiti hesabına ümumi sahəsi 4077,0 kv.m olan fərdi yaşayış evləri istifadəyə verilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 257,0 kv.m və ya 6,7 faiz çox olmuşdur.

Yerinə yetrilmiş tikinti işlərinin əvvəlki ilin müvafiq dövrü ilə müqayisəsi (faktiki qiymətlərlə) aşağıdakı cədvəldə göstərilmişdir.

**Yerinə yetrilmiş tikinti işlərinin dəyəri, min manatla**

| | 2023-cü ilin yanvar-sentyabr aylarında | 2022-ci ilin yanvar-sentyabr aylarında | 2022-ci ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| Cəmi tikinti işləri | 5742,5 | 1573,1 | 3,7 dəfə |
| *o cümlədən:* *- tikinti, yenidənqurma, genişləndirmə, texniki avadanlıqlar və cihazlarla yenidən təchiz edilmə* | *4161,8* | *288,5* | *14,4 dəfə* |
| *- əsaslı təmir* | *451,8* | *538,1* | *84,0* |
| *- cari təmir* | *1128,9* | *746,5* | *151,2* |

## Nəqliyyat

2023-cü ilin yanvar-sentyabr ayları ərzində nəqliyyat müəssisələri və nəqliyyat sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən məhsul buraxılışının həcmi 2764,9 min manat olmuşdur ki, ötən ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 3,2 faiz azalmışdır. Məhsul buraxlışının həcmindən 164,4 min manatı hüquqi şəxslərin, 2600,5 min manatı isə fiziki şəxslərin payına düşür. 2023-cü ilin yanvar-sentyabr ayları ərzində fiziki şəxslər tərəfindən 4792,0 min sərnişin, 374,0 min ton yük daşınmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 842,0 min və ya 21,3 faiz çox sərnişin, 34,0 min ton və ya 10,0 faiz çox yük daşınmışdır.

Nəqliyyat sektorunda məhsul buraxılışı və fiziki şəxslər tərəfindən sərnişin və yük daşınmanın həcmi aşağıdakı cədvəldə göstərilmişdır.

**Nəqliyyat sektorunun əsas göstəriciləri**

| Sahələrin adı | 2023-cü ilin yanvar-sentyabr aylarında | 2022-ci ilin yanvar-sentyabr aylarında | 2022-ci ilin müvafiq dövrünə nisbətən, +,- |
|---|---|---|---|
| Nəqliyyat sektorunda məhsul buraxılışı (min manat) | 2764,9 | 2699,6 | 65,3 |
| *o cümlədən:*<br>*- hüquqi şəxslər üzrə (min manat)* | 164,4 | 275,4 | -111,0 |
| *- fiziki şəxslər üzrə (min manat)* | 2600,5 | 2424,2 | 176,3 |
| Sərnişin daşınma fiziki şəxslər üzrə (min sərnişin) | 4792,0 | 3950,0 | 842,0 |
| Yük daşınma həcmi fiziki şəxslər üzrə (min ton) | 374,0 | 340,0 | 34,0 |

## Rabitə

2023-cü ilin yanvar-sentyabr ayları ərzində rabitə müəssisələri tərəfindən müəssisə təşkilatlara və əhaliyə göstərilən xidmətlərin (ƏDV-siz) faktiki qiymətlərlə dəyəri 678,4 min manat olmuş və ötən ilin müvafiq dövrü ilə müqayisədə 88,7 min manat və ya müqayisəli qiymətlərlə 15,0 faiz çox olmuşdur. Rabitə xidmətlərinin həcmindən əhaliyə göstərilən rabitə xidmətlərinin (ƏDV-siz) faktiki qiymətlərlə dəyəri 564,9 min manat olmuş və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 64,1 min manat artmışdır.

**Rabitə müəssisələri tərəfindən göstərilmiş xidmətlərin faktiki qiymətlərlə dəyəri, min manatla**

| Göstəricilər | 2023-cü ilin yanvar-sentyabr aylarında | 2022-ci ilin yanvar-sentyabr aylarında | 2022-ci ilin müvafiq dövrünə nisbətən, +,- |
|---|---|---|---|
| Rabitə xidmətlərindən əldə olunan gəlir (ƏDV-siz) | 678,4 | 589,7 | 88,7 |
| *o cümlədən:*<br>*- əhaliyə göstərilən rabitə xidmətlərinin dəyəri (ƏDV-siz)* | *564,9* | *500,8* | *64,1* |

## Pərakəndə ticarət dövriyyəsinin həcmi

2023-cü ilin yanvar-sentyabr ayları ərzində pərakəndə ticarət dövriyyəsinin həcmi 239290,2 min manat olmuşdur ki, bunun da 22546,4 min manatı və ya 9,4 faizi hüquqi şəxslərin, 216743,8 min manatı və ya 90,6 faizi fərdi sahibkarların payına düşür.

Pərakəndə ticarət dövriyyəsi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 26587,8 min manat və ya müqayisəli qiymətlərlə 1,0 faiz artmışdır.

Pərakəndə ticarət dövriyyəsinin 116452,4 min manatı və yaxud 48,7 faizi ərzaq malları, içkilər və tütün məmulatlarının, 122837,8 min manatı və yaxud 51,3 faizi qeyri ərzaq mallarının payına düşür. Pərakəndə ticarət dövriyyəsinin 239285,7 min manatı və ya 99,9 faiz özəl sektorun payına düşür. Hesabat dövrünün sonuna pərakəndə ticarət şəbəkələrində mal qalığı 19788,3 min manat olmuşdur.

**Pərakəndə ticarət dövriyyəsinin həcmi, min manatla**

| Göstəricilər | pərakəndə ticarət dövriyyəsinin həcmi | o, cümlədən | | 01.10.2023-cü il tarixinə mal qalığı |
|---|---|---|---|---|
| | | ərzaq malları, içkilər və tütün məmulatları | qeyri-ərzaq malları | |
| Rayon üzrə cəmi | 239290,2 | 116452,4 | 122837,8 | 19788,3 |
| o cümlədən; - Hüquqi şəxslər üzrə | 22546,4 | 4986,7 | 17559,7 | 1821,3 |
| - Fərdi sahibkarlar, bazar və yarmarkalar üzrə, cəmi | 216743,8 | 111465,7 | 105278,1 | 17967,0 |
| o cümlədən : - Bazar və yarmarkalar | 77423,3 | 41280,1 | 36143,2 | - |
| - Fərdi sahibkarlar üzrə | 139320,5 | 70185,6 | 69134,9 | 17967,0 |

# Əhaliyyə göstərilən ödənişli xidmətlərin həcmi

2023-cü ilin yanvar-sentyabr ayları ərzində əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi 28255,0 min manat olmuşdur ki, bunun da 4892,5 min manatı hüquqi şəxslərin, 23362,5 min manatı isə fərdi sahibkarların payına düşür.

Əhaliyə göstərilən ödənişli xidmətin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3140,0 min manat və ya müqayisəli qiymətlərlə 2,6 faiz artmışdır. Göstərilən ödənişli xidmətlərin həcmindən 3682,0 min manatı məişət xidməti olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 438,0 min manat və ya müqayisəli qiymətlərlə 1,3 faiz çoxdur. 2023-cü ilin yanvar-sentyabr ayları ərzində iaşə dövriyyəsinin həcmi 4892,0 min manat olmuşdur. Bu da əvvəlki ilin müvafiq dövrü müqayisədə 834,0 min manat və ya müqayisəli qiymətlərlə 5,1 faiz çox olmuşdur.

**Əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi, min manatla**

| Göstəricilər | 2023-cü il yanvar-sentyabr aylarında | o, cümlədən; məişət xidməti |
|---|---|---|
| Ödənişli xidmətlərin həcmi | 28255,0 | 3682,0 |
| *o cümlədən :*<br>*- hüquqi şəxslər üzrə* | *4892,5* | *11,8* |
| *- fərdi sahibkarlar üzrə* | *23362,5* | *3670,2* |